**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI**

**AZS 1.0:2022**

İkinci nəşr
2022

# Azərbaycan Respublikasının Dövlət Standartlaşdırma Sistemi. Əsas müddəalar

# State System for Standardization of the Republic of Azerbaijan. Basic principles

azstand AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU

İstinad nömrəsi
AZS 1.0:2022

©AZSTAND 2022

Bu standart Azərbaycan Standartlaşdırma İnstitutunun icazəsi olmadan tam və ya hissə-hissə yenidən çap oluna, çoxaldıla və yayıla bilməz

Elçin İsaqzadə küç., 7-ci köndələn
Telefon: +994125149308
Email: office@azstand.gov.az

 ©AZSTAND –Bütün hüquqlar qorunur

## MÜQƏDDİMƏ

**1.** “Azərbaycan Standartlaşdırma İnstitutu” PHŞ tərəfindən işlənib hazırlanıb və “Təşkilati, metodoloji və ümumi texniki standartlar” üzrə Texniki Komitə (AZSTAND/TK 37) tərəfindən təqdim edilib.

**2.** “Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxsin _31__ _Mart___ 2022-ci il tarixli _222323500008__ saylı Qərarı ilə təsdiq edilmişdir.

**3.** AZS 1.0-96 “Azərbaycan Respublikasının Dövlət Standartlaşdırma Sistemi. Əsas müddəalar” dövlət standartının əvəzinə.

**4.** Dövlət standartında müəyyən edilən tələblərin beynəlxalq standartlara, norma, qayda və tövsiyələrə və digər dövlətlərin müvafiq mütərəqqi milli standartlarına, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmasını müəyyən etmək üçün standartın dövrü yoxlama müddəti 1 ildir.

©AZSTAND –Bütün hüquqlar qorunur

## MÜNDƏRİCAT

1. Tətbiq sahəsi ........................................................................................ 1

2. Normativ istinadlar ................................................................................. 1

3. Termin və təriflər .................................................................................... 2

4. Standartlaşdırmanın məqsəd və vəzifələri ......................................................5

5. Standartlaşdırmanın əsas prinsipləri .............................................................. 6

6. Standartlaşdırma üzrə işlərin təşkili ................................................................ 8

7. Standartlaşdırma subyektləri və standartlaşdırma üzrə
normativ sənədlərin növləri ........................................................................... 10

8. Standartlaşdırma sahəsində beynəlxalq elmi-texniki əməkdaşlıq ................... 14

9. Standartların tətbiqi.................................................................................... 16

10. Standartlaşdırma sahəsində sənədlər haqqında
informasiya, onların nəşri və yayımı ............................................................. 17

Biblioqrafiya ................................................................................................. 19


©AZSTAND –Bütün hüquqlar qorunur

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI

**Azərbaycan Respublikasının Dövlət**
**Standartlaşdırma Sistemi. Əsas müddəalar**

**AZS 1.0:2022**

**State System for Standardization of the**
**Republic of Azerbaijan. Basic principles**

Tətbiq edilmə tarixi "_31__" "__Mart___2022 -ci il

### 1 TƏTBİQ SAHƏSİ

Bu standart standartlaşdırmanın məqsəd, vəzifə və prinsiplərini, standartlaşdırma üzrə normativ sənədlərin növlərini, standartlaşdırma üzrə işlərin təşkili və tətbiqi qaydalarını müəyyənləşdirir.

Azərbaycan Respublikasında standartlaşdırmanın əsasverici standartlarının müddəaları müvafiq icra hakimiyyəti orqanları, təsərrüfat fəaliyyəti ilə məşğul olan subyektlər, respublika ərazisində yerləşən müəssisə, idarə və təşkilatlar, həmçinin mülkiyyət və tabeçilik formalarından asılı olmayaraq bütün ittifaqlar, assosiasiyalar, konsernlər, səhmdar birlikləri, sahələrarası, regional və digər birliklər (bundan sonra-müəssisə), fərdi əmək fəaliyyəti ilə məşğul olan vətəndaşlar, standartlaşdırma üzrə texniki komitələr, elmi-texniki və mühəndis cəmiyyətləri (ittifaqları, assosiasiyaları və başqa ictimai birlikləri) tərəfindən tətbiq edilir.

### 2 NORMATİV İSTİNADLAR

Bu standartda aşağıdakı standartlara istinad edilmişdir:

AZS 1.1:2009 Standartlaşdırma üzrə texniki komitələr. Yaradılması və fəaliyyəti qaydası

AZS 1.2:2022 Azərbaycan Respublikasının dövlət standartlaşdırma sistemi. Dövlət standartlarının işlənmə qaydaları.

AZS 1.3:2009 Azərbaycan Respublikasının dövlət standartlaşdırma sistemi. Texniki şərtlərin işlənməsi, razılaşdırılması, təsdiqi və qeydiyyatı qaydaları

©AZSTAND –Bütün hüquqlar qorunur 

AZS 1.5:1996 Azərbaycan Respublikasının dövlət standartlaşdırma sistemi. Standartların tərtibi, şərhi, rəsmiləşdirilməsi və məzmununa olan ümumi tələblər.

Qeyd - Bu standartdan istifadə edərkən cari ilin yanvarın 1-nə tərtib edilmiş kataloq və ya cari ildə dərc edilən müvafiq informasiya göstəriciləri üzrə normativ sənədin qüvvədə olmasının yoxlanılması məqsədəuyğundur. Əgər istinad edilən normativ sənəd əvəz edilibsə (dəyişdirilibsə), onda bu standartın istifadəsi zamanı əvəz edilmiş (dəyişdirilmiş) normativ sənəddən istifadə edilməlidir. Əgər istinad edilən normativ sənəd əvəz edilmədən ləğv edilibsə, onda istinad edilmiş müddəanın bu istinada toxunmayan hissəsi tətbiq edilir.

## 3 TERMİN VƏ TƏRİFLƏR

**3.1 Standartlaşdırma (standardization)** – standartlaşdırma obyektlərinin təhlükəsizliyinin və keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş kütləvi və təkrar istifadə üçün nəzərdə tutulan normativ sənədlərin hazırlanması, təsdiqi və tətbiqi prosesindən ibarət fəaliyyət.

**3.2 Standart (standard)** - təkrar və ümumi istifadə üçün nəzərdə tutulan, mala (işə, xidmətə), onunla əlaqəli prosesə (o cümlədən idarəetmə sisteminə) və istehsal metodlarına dair norma, qayda və tövsiyələri müəyyən edən, tətbiqi könüllü olan normativ sənəd.

**3.3 Beynəlxalq standart (international standard)** – standartlaşdırma üzrə beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş standart.

**3.4 Regional standart (regional standard)** - standartlaşdırma üzrə regional təşkilatlar tərəfindən qəbul olunmuş standart.

**3.5 Dövlət standartı (state standard)** - milli standartlaşdırma qurumu tərəfindən qəbul edilən standart.

**3.6 İlkin dövlət standartı (initial state standard)** - tətbiqi müvəqqəti olan, istifadəsi zamanı lazımi təcrübənin əldə olunması üçün nəzərdə tutulan standartlaşdırma üzrə normativ sənəd.

**3.7 Dövlətlərarası standartlar (interstate standard)** - iki və daha çox dövlətin qarşılıqlı razılığı əsasında qəbul olunmuş və bir-biri ilə müvafiq münasibətlərdə istifadə


©AZSTAND –Bütün hüquqlar qorunur

etdiyi standartlar.

**3.8 İstinad edilmiş standart (reference standard)** - texniki reqlamentdə müəyyən edilmiş əsas tələblərin həyata keçirilməsi və texniki reqlamentin tətbiqi məqsədilə hazırlanmış standart.

**3.9 Texniki komitə (technical committee)** - standartlaşdırma üzrə normativ sənədlərin hazırlanması məqsədi ilə maraqlı tərəflərin iştirakı ilə yaradılan məşvərətçi qurum.

**3.10 Maraqlı tərəflər (stakeholders)** - standartlaşdırma üzrə normativ sənədləri tətbiq edən və ya həmin sənədlərin hazırlanmasında maraqlı olan dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxslər.

**3.11 Texniki şərtlər (technical specifications)** - mala (işə, xidmətə), onunla əlaqəli proseslərə (o cümlədən idarəetmə sistemlərinə) və istehsal metodlarına dair texniki tələbləri müəyyənləşdirən, tətbiqi könüllü olan normativ sənəd.

**3.12 Standartlaşdırma üzrə Dövlət Fondu (State Fund for Standardization)** - müvafiq dövlət orqanları (qurumları), beynəlxalq, regional və xarici ölkələrin aidiyyəti təşkilatları ilə, habelə yerli təşkilatlarla qarşılıqlı əlaqə şəraitində qurulan və standartlaşdırma sahəsində sənədlərin məcmusundan ibarət olan və milli standartlaşdırma qurumu tərəfindən idarə olunan informasiya resursu.

**3.13 Rəsmi nəşr (official publication)** - standartlaşdırma üzrə dövlət fondu bazasında standartlaşdırma üzrə normativ sənədlərin milli standartlaşdırma qurumu tərəfindən kağız və elektron daşıyıcılarda nəşr edilməsi.

**3.14 Rəsmi yayım (official broadcasting)** - müəlliflik hüquqları qorunmaqla, təşkilatların, fiziki və ya hüquqi şəxslərin müvafiq sorğuları əsasında milli standartlaşdırma qurumu tərəfindən rəsmi nəşrin təqdim edilməsi və ya satışı.

**3.15 Standartlaşdırma obyekti (object of standardization)** - mal (iş, xidmət), onunla əlaqəli proses (o cümlədən idarəetmə sistemi), istehsal metodu.

©AZSTAND –Bütün hüquqlar qorunur 

**3.16 Uyğunlaşdırılma (adaptation)** - özündə elm və texnikanın ən yeni nailiyyətlərini əks etdirən və malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun keyfiyyət səviyyəsinə və rəqabət qabiliyyətliliyinə müasir tələbləri müəyyən edən beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartlarının milli maraqlar üçün istifadəsi və tətbiqi üzrə fəaliyyət.

**3.17 Standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılması (verification of normative documents in the field of standardization)**- təkmilləşdirilməsinə və ya ləğvinə ehtiyac olub-olmamasını müəyyən etmək məqsədilə standartlaşdırma üzrə normativ sənədə baxılması.

**3.18 Təsərrüfat subyekti (business entity)** - istehsalçı, idxalçı və ticarət nümayəndəsi (agent).

**3.19 Uyğunluğun qiymətləndirilməsi (conformity asssessment)** - malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun standartlarda göstərilən tələblərə uyğunluğunun müəyyən edilməsi prosesi.

**3.20 Ətraf mühitin qorunması (protection of environment)** – ətraf mühitin malların, proseslərin və xidmətlərin ziyanlı təsirindən mühafizəsi.

**3.21 Unifikasiya (unification)** – malların, əlaqəli proseslərin və xidmətlərin müxtəlif növlərinin optimal sayının parametr və ölçülərinin seçilməsi.

**3.22 Elmi-texniki şura (scientific and technical council**) - standartlaşdırma sahəsində texniki nailiyyətlərin, qabaqcıl təcrübənin, yeni texnologiyanın öyrənilməsi və onların tətbiqi, tədqiqat işlərinin koordinasiyası, bu sahədə maarifləndirmə xidmətlərinin göstərilməsi, ölkədə yeni standartların işlənməsinə dair texniki baxımdan əsaslandırılaraq hazırlanmış təkliflərə baxılması məqsədilə yaradılan və ictimai əsaslarla fəaliyyət göstərən məşvərətçi qurum.

**3.23 Təhlükəsizlik (safety)** – ziyan vurma ehtimalı olan yolverilməz risklərin olmaması.

**3.24 Qarşılıqlı əvəz olunma (mutual substitution)** – eyni tələbləri yerinə

 ©AZSTAND –Bütün hüquqlar qorunur

yetirmək üçün hər hansı bir malın, prosesin, xidmətin yararlı olması.

## 4 STANDARTLAŞDIRMANIN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

**4.1 Standartlaşdırmanın məqsədləri və vəzifələri aşağıdakılardır:**

- malın (xidmətin, işin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun sərbəst hərəkəti üçün şərait yaradılması və beynəlxalq ticarətdə lüzumsuz texniki maneələrin aradan qaldırılması;
- daxili və xarici bazarda rəqabət qabiliyyətini artırmaq məqsədi ilə malın (xidmətin, işin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun keyfiyyətinin və işçi heyətinin səriştəliliyinin təkmilləşdirilməsi;
- malların və onlara dair ehtiyat hissələrinin texniki, texnoloji və informasiya uyğunluğunun, eləcə də qarşılıqlı əvəz olunmasının təmin edilməsi;
- mallarda və onların ehtiyat hissələrində olan müxtəlifliyin aradan qaldırılmasını və onların qarşılıqlı əvəz olunmasını təmin etməklə resurslara qənaət olunması və mallara çəkilən istehsal xərclərinin azaldılması;
- istehlakçıların mallara (xidmətə, işə) dair tələb və gözləntilərinin müvafiq mallarda öz əksini tapmasına, eləcə də istehlakçılarda malların (işlərin, xidmətlərin) keyfiyyətinə dair etibarın formalaşdırılmasına və malın (xidmətin, işin) keyfiyyəti haqqında dəqiq informasiya əldə etməsinə dəstək göstərilməsi, malın (xidmətin, işin) təhlükəsizliyinə və keyfiyyətinə dair istehlakçılara yanlış məlumatların verilməsinin qarşısının alınması;
- dövlət standartlarının beynəlxalq standartlara uyğunlaşdırılması və regional və beynəlxalq standartlaşdırmada milli iqtisadiyyatın maraqlarının nəzərə alınması;
- innovasiyaların səmərəli tətbiqinin və yüksək texnologiyalı malların istehsalının dəstəklənməsi;
- təbii ehtiyatlardan və enerji resurslarından səmərəli istifadənin təmin edilməsi;
- satınalmalar zamanı dövlətin maraqlarının qorunması;
- iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi.

**4.2 Standartlaşdırmanın əsas vəzifələri aşağıdakılardır:**

- layihəçi, istehsalçı, satıcı və istehlakçılar arasında qarşılıqlı anlaşmanın təmini;
- istehlakçı və dövlətin mənafeyi naminə məhsulun nomenklatura və keyfiyyətinə, o cümlədən insanların həyatı, sağlamlığı və əmlakının təhlükəsizliyini, ətraf mühitin qorunmasını təmin edəcək optimal tələblərin müəyyənləşdirilməsi;
- məhsulun uyğunluğuna (konstruktiv, elektrik, elektromaqnit, məlumat, proqram və s.), eləcə də qarşılıqlı əvəzolunmasına tələblərin təyini;

©AZSTAND –Bütün hüquqlar qorunur 

- məhsulun göstərici xarakteristikalarının, elementlərinin dəstləşdirici məmulatlarının, xammal və materiallarının uyğunlaşdırılması və əlaqələndirilməsi;

- texnoloji proseslər, həmçinin material və əmək sərfinin, enerji tutumunun azaldılması, az tullantılı texnologiyanın tətbiqinin təmin edilməsi üçün tələblərin təyini;

- texniki-iqtisadi məlumatın təsnifləşdirilmə və kodlaşdırılma sisteminin yaradılması və aparılması.

## 5 STANDARTLAŞDIRMANIN ƏSAS PRİNSİPLƏRİ

**5.1** Standartlaşdırmanın prinsipləri aşağıdakılardır:

- bütün maraqlı tərəflərin standartlaşdırma prosesində bərabər şərtlər əsasında könüllü iştirakı;

- standartlaşdırma üzrə normativ sənədlərin maraqlı tərəflərin konsensusu əsasında hazırlanması və qəbul edilməsi;

- standartlaşdırmanın şəffaflığı;

- dövlət standartlarının hazırlanmasında beynəlxalq və regional standartlardan istifadə edilməsi və onların həmin standartlara uyğunlaşdırılması;

- standartlaşdırma üzrə normativ sənədlərin hazırlanmasında elm və texnikanın nailiyyətlərinin, bilik, qabaqcıl təcrübə və texnologiyaların tətbiqi;

- standartlaşdırma üzrə normativ sənədlərin bir-birinə ziddiyyət təşkil etməməsi;

- standartlaşdırmanın sistemliliyinin və kompleksliliyinin təmin edilməsi;

- insanların həyat və ya sağlamlığına, ətraf mühitə, əmlaka və dövlətin maraqlarına zərər vuracaq standartlaşdırma üzrə normativ sənədlərin hazırlanmasının qarşısının alınması;

- istehlakçıların gözləntilərinin və bazarın tələblərinin nəzərə alınması;

- istehsalçıların və istehlakçıların ehtiyaclarının ödənilməsi;

- şəxsi maraqların ümumi maraqlardan üstün tutulmasının qarşısının alınması;

- standartlaşdırma üzrə normativ sənədlərin Azərbaycan Respublikasının texniki reqlamentlərinə uyğunluğu;

- standartların könüllü xarakter daşıması.

**5.2** Standartlar hazırlandıqda aşağıdakılar təmin edilməlidir:

**-** standartların tələbləri qanunvericilik normalarına, eləcə də dövlət nəzarəti funksiyasını yerinə yetirən orqanların norma və qaydalarına uyğun olmalı;

**-** metroloji təminat da daxil olmaqla qarşılıqlı əlaqəli obyektlərin standartları, həmin obyektlərə verilən tələblərin razılaşdırılması və standartlaşdırma üzrə normativ


©AZSTAND –Bütün hüquqlar qorunur

sənədlərin qüvvəyə minmə müddətlərinin əlaqələndirilməsi yolu ilə kompleks halda olmalı;

**-** standarta daxil edilən tələblər optimal olmalı.

**5.3** Elm və texnikanın müasir nailiyyətlərinə, yerli və xarici ölkələrin qabaqcıl təcrübəsinə uyğunluğunu təmin etmək üçün, standartların köhnəlmiş tələbləri vaxtında dəyişdirilməli və standart dövrü yoxlamalar nəticəsində yenilənməlidir.

**5.4** Standartlar standartlaşdırma obyektinin əsas xassələrinə, insanların həyatı, sağlamlığı və əmlakının təhlükəsizliyini, ətraf mühitin qorunmasını, uyğunluq və qarşılıqlı əvəzolunma qabiliyyətlərini, eləcə də markalanma qaydaları və nəzarət üsullarını təmin edən tələblər daxil edilməklə elə tələblər müəyyən etməlidir ki, onlar obyektiv yoxlana bilsin.

Məhsul və xidmət standartları sertifikatlaşdırma məqsədləri üçün yararlı olmalıdır.

Standartların tələbləri birmənalı başa düşülsün deyə dəqiq və aydın yazılmalıdır.

Eyni standartlaşdırma obyektlərinin standartlarının müxtəlif idarə səviyyələrində təkrar işlənib hazırlanmasına yol verilməməlidir.

**5.5** Dövlət standartları könüllülük əsasında tətbiq edilir. Dövlət standartlarına riayət edilməsinin məcburiliyi, qüvvədə olan qanunvericilikdə, sazişlərdə, müqavilələrdə, icra hakimiyyəti orqanlarının və ya müxtəlif mülkiyyət formalı müəssisələrin qanunvericiliyə uyğun qəbul etdiyi normativ sənədlərdə nəzərdə tutulduqda həyata keçirilir.

**5.6** Beynəlxalq və regional standartlar, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrinin qabaqcıl təcrübəsini, elmi tədqiqatların nəticələrini, geniş dairədə istehlakçıların və dövlət orqanlarının tələblərini və əksər ölkələr üçün qaydaları, ümumi prinsipləri və ya xarakteristikaları əks etdirir.

**5.7** Dövlət standartlarının Azərbaycan Respublikasının iqlim və coğrafi xüsusiyyətləri, texniki və texnoloji xüsusiyyətləri və ya digər əsaslar baxımından tətbiqi mümkün olmadığı hesab edilən və ya Azərbaycan Respublikasının müvafiq prosedurlara uyğun beynəlxalq standartın və ya onun bəzi müddəalarının əleyhinə çıxış etdiyi hallar istisna olmaqla, beynəlxalq standartlar əsasında işlənilməsinə üstünlük verilir.

©AZSTAND –Bütün hüquqlar qorunur 

**5.8** Dövlət standartlarının şərhi aydın və dəqiq olmalı, onların tələblərinin birmənalı başa düşülməsi üçün isə:

- işlənən standartların məzmunu qüvvədə olan, onunla qarşılıqlı əlaqəli, normativ, hüquqi sənədlərin və texniki reqlamentlərin tələblərini təkrarlamamalı və onlara zidd olmamalıdır;
- dövlət standartlarında texniki reqlamentlər haqqında məlumat verilməlidir;
- qəbul edilən standartlar uyğunluğun təsdiqlənməsi, həmçinin sertifikatlaşdırma üzrə işlərin aparılması üçün yararlı olmalıdır.

**5.9** Funksional təyinatına görə oxşar standartlaşdırma obyektlərinə təkrar standartların işlənməsinə yol verilmir.

**5.10** Milli standartların tələbləri elmin, texnikanın müasir nailiyyətləri, beynəlxalq standartların son redaksiyaları və ya onların layihələri əsasında, yeni məhsul növlərinin, proseslərin və xidmətlərin mənimsənilməsində standartlardan istifadə edənlərin təşəbbüsünün qarşısı alınmadan müəyyən edilməlidir.

**5.11** Milli standartlaşdırma üzrə işlər aparılarkən, standartlaşdırma obyektinə və onun tərkib hissələrinə, eləcə də standartlaşdırma obyektinə təsir edən digər maddi və qeyri-maddi amillərə məqsədyönlü və planlı şəkildə, qarşılıqlı əlaqəli tələblər sistemi tətbiq edilməlidir.

## 6 STANDARTLAŞDIRMA ÜZRƏ İŞLƏRİN TƏŞKİLİ

**6.1** Standartlaşdırma üzrə işlərin təşkilini Milli Standartlaşdırma Qurumu (Azərbaycan Standartlaşdırma İnstitutu) həyata keçirir.

**6.2** Standartlaşdırma üzrə milli orqan aşağıdakı funksiyaları yerinə yetirir:

- dövlət standartlarını təsdiq edir;
- milli standartlaşdırma proqramını qəbul edir;
- standartlaşdırma sahəsində normativ sənədlərə rəy verir, onların ölkə ərazisində qüvvəyə minməsi, ekspertizası, qəbul edilməsi, dövrü yoxlanılması, qüvvədə olma müddətinin artırılması, qüvvəsinin dayandırılması və ləğv edilməsi üçün tədbirlər görür;
- milli standartlaşdırma sisteminin milli iqtisadiyyatın maraqlarına, maddi-texniki bazanın və elmi-texniki tərəqqinin vəziyyətinə uyğunluğunu təmin edir;

 ©AZSTAND –Bütün hüquqlar qorunur

- standartlaşdırma üzrə texniki komitələri yaradır və onların fəaliyyətini əlaqələndirir;

- ölkənin standartlaşdırma üzrə dövlət fondunu idarə edir;

- standartlaşdırma üzrə normativ sənədlərin (rəsmi nəşrlərin) nəşr edilməsini və müəlliflik hüquqları qorunmaqla rəsmi yayımını həyata keçirir;

- beynəlxalq təşkilatların nizamnaməsinə uyğun olaraq, beynəlxalq standartların işlənməsində iştirak edir və onların qəbulu zamanı Azərbaycan Respublikasının maraqlarının nəzərə alınmasını təmin edir;

- Azərbaycan Respublikasını standartlaşdırma sahəsində fəaliyyət göstərən beynəlxalq və regional təşkilatlarda təmsil edir.

**6.3** Dövlət standartlarının hazırlanması işlərinin planlaşdırılması milli standartlaşdırma qurumu tərəfindən formalaşdırılan, təsdiq edilən və nəşr edilən 3 illik milli standartlaşdırma proqramı əsasında həyata keçirilir. Proqramda dövlət standartlarının müəyyənləşdirilməsi, qəbul edilməsi, onların siyahısının dərc edilməsi və müntəzəm olaraq yenilənməsi üçün milli standartlaşdırma qurumu, müvafiq sahədə dövlət orqanları (qurumları) və standartlaşdırma üzrə texniki komitələr tərəfindən görüləcək tədbirlər əks olunur.

**6.4** Standartlaşdırma üzrə milli proqram standartlaşdırma ilə əlaqəli olan texniki reqlamentlərin və digər normativ hüquqi aktların tələbləri, standartlaşdırma üzrə texniki komitələrin iş planları nəzərə alınmaqla hazırlanır.

**6.5** Standartlaşdırma üzrə milli proqram beynəlxalq, regional, dövlətlərarası standartların hazırlanmasına şamil olunmur.

**6.6** Standartlaşdırma üzrə milli proqrama aşağıdakılar daxildir:

- standartların beynəlxalq təsnifat kodu;
- standartların layihələrinin adları;
- standartın işlənməsi üçün əsas;
- əsas normativ baza;
- işin icra müddəti;
- maliyyə mənbəyi;
- təklif verən sifarişçi təşkilatın adı;
- xarici iqtisadi fəaliyyətin mal nomenklaturası.

©AZSTAND –Bütün hüquqlar qorunur 

**6.7** Standartlaşdırma üzrə milli proqram milli standartlaşdırma qurumunun internet saytında dərc edilir.

**6.8** Milli standartlaşdırma qurumu altı ayda bir dəfədən az olmayaraq milli standartlaşdırma proqramı üzrə görülmüş işlər barədə məlumatları öz internet saytında yerləşdirməlidir.

Standartlaşdırma üzrə texniki komitələrin yaradılması, formalaşması və fəaliyyətinin əlaqələndirilməsi AZS 1.1 dövlət standartının tələblərinə uyğun olaraq həyata keçirilir.

**6.9** Standartlaşdırma üzrə texniki komitələr dövlət, beynəlxalq, regional, dövlətlərarası standartların hazırlanmasında maraqlı tərəflərin iştirakını təmin etmək məqsədi ilə təsis edilir.

**6.10** Texniki komitələr dövlət orqanlarının (qurumlarının), fiziki və hüquqi şəxslərin təşəbbüsü və müvafiq müraciəti əsasında milli standartlaşdırma qurumu tərəfindən təsis edilir, qeydiyyata alınır və fəaliyyətləri əlaqələndirilir.

**6.11** Maraqlı tərəflərin texniki komitələrə cəlb edilməsi həmin komitələrin yaradılması təşəbbüsü ilə çıxış edən dövlət orqanlarının (qurumlarının), fiziki və hüquqi şəxslərin və ya həmin maraqlı tərəflərin təşəbbüsü əsasında həyata keçirilir. Texniki komitənin tərkibinə müvafiq sahədə dövlət orqanlarının (qurumlarının), elm və təhsil müəssisələrinin, istehsalçı müəssisələrin, ictimai birliklərin, istehlakçıların nümayəndələri, standartlaşdırma üzrə texniki ekspertlər daxil edilə bilər.

**6.12** Standartlaşdırma üzrə texniki komitələr dövlət standartlarının vaxtında işlənilib hazırlanmasını təmin etməlidirlər.

## 7 STANDARTLAŞDIRMA SUBYEKTLƏRİ VƏ STANDARTLAŞDIRMA ÜZRƏ NORMATİV SƏNƏDLƏRİN NÖVLƏRİ

**7.1** Standartlaşdırmanın aşağıdakı subyektləri vardır:

- milli standartlaşdırma qurumu;
- standartlaşdırma üzrə texniki komitələr;


©AZSTAND –Bütün hüquqlar qorunur

- standartlaşdırma fəaliyyəti ilə məşğul olan digər subyektlər (dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxslər).

**7.2** Standartlaşdırma sahəsində normativ sənədlərə aşağıdakılar aiddir:

- dövlət standartları, o cümlədən ilkin dövlət standartları;
- beynəlxalq və regional, dövlətlərarası, eləcə də xarici dövlətlərin standartları;
- texniki şərtlər.

**7.3** Standartlaşdırma sahəsində sənədlərdə nəzərdə tutulan tələblər beynəlxalq standartlara uyğun olmalı, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmalı, malın (xidmətin, işin), prosesin, istehsal metodunun şərtlərini nəzərə almalı, habelə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərini pozmamalıdır.

**7.4 Dövlət standartları**

**7.4.1** Azərbaycan Respublikasının dövlət standartlarında aşağıdakılar müəyyən edilə bilər:

- texniki reqlamentlərlə müəyyən edilmiş tələblərə əməl edilməsini təmin etmək məqsədi ilə standartlaşdırma obyektləri üzrə zəruri tələblər;
- malın (xidmətin, işin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun təsnifatlaşdırılmasına dair tələblər;
- malın unifikasiya, uyğunluq və qarşılıqlı əvəzolunma göstəriciləri;
- termin və təriflər;
- istehlak xassələri və malın (xidmətin, işin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun keyfiyyət səviyyəsini müəyyən edən funksional təyinatlı göstəriciləri (xarakteristikaları da daxil olmaqla);
- qəbul, qablaşdırılma, markalanma, daşınma, saxlanma, utilizasiya və məhvetmə qaydaları;
- sınaq üsulları və qaydaları;
- bütün növ resursların qənaət olunmasına və resurslardan səmərəli istifadə edilməsinə dair tələblər;
- idarəetmə sistemləri və onların tətbiqinə dair tələblər;
- müəyyən fəaliyyət sahəsi üzrə təşkilati-metodiki xarakterli müddəalar, eləcə də ümumi texniki norma və qaydalar.

**7.4.2** Azərbaycan Respublikasının dövlət standartları qanunvericiliyin tələbləri, beynəlxalq, dövlətlərarası və regional standartlar və standartlaşdırma obyektlərinə olan

©AZSTAND –Bütün hüquqlar qorunur 

tələbləri müəyyənləşdirən digər normativ sənədlər, elmi tədqiqatların (sınaqların) və ölçmələrin nəticələri nəzərə alınmaqla hazırlanmalıdır. Dövlət standartları lüzumsuz maneələr yaratmaq məqsədi ilə hazırlanmamalı, qəbul və ya tətbiq olunmamalıdır.

**7.4.3** Dövlət standartı Azərbaycan Respublikasının ərazisinə idxal edilən mallara tətbiq edilən rejimin yerli və ya digər ölkə mənşəli oxşar mallara tətbiq edilən rejimlə eyniliyini təmin edən formada hazırlanmalı, qəbul və tətbiq edilməlidir.

**7.4.4** Standartlaşdırma fəaliyyətinin məqsədlərinə nail olmaq üçün əsaslı iqlim, coğrafi və ya texnoloji amillər səbəbindən uyğun gəlmədiyi hallarda, müvafiq beynəlxalq, dövlətlərarası və regional standartlar və ya onların müvafiq hissələri dövlət standartının hazırlanması üçün texniki komitələr tərəfindən təhlil və istifadə mənbəyi kimi götürülməyə bilər.

**7.4.5** Dövlət standartları standartlaşdırma üzrə milli proqrama və ya təşəbbüs qaydasına müvafiq olaraq işlənib hazırlanır.

**7.4.6** Dövlət standartlarının işlənib hazırlanması AZS 1.2 dövlət standartına uyğun həyata keçirilir.

### 7.5 İlkin dövlət standartları

**7.5.1** İlkin dövlət standartları innovasiyalı yeni mal (iş, xidmət), onunla əlaqəli proses (o cümlədən idarəetmə sistemi), istehsal metodu üçün hazırlanır.

**7.5.2** İlkin dövlət standartlarında göstərilən tələblər texniki reqlamentlərin və standartların tələblərinə zidd olmamalıdır.

**7.5.3** İlkin dövlət standartları elmi tədqiqatların (sınaqların) və ölçmələrin nəticələri və innovasiyalı yeni növ malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun tətbiqi ilə əldə edilən praktik təcrübələrin əsasında hazırlanır.

**7.5.4** İlkin dövlət standartlarının işlənib hazırlanması standartlaşdırma sisteminin subyektlərinin təşəbbüsü ilə həyata keçirilir.

**7.5.5** İlkin dövlət standartlarının işlənib hazırlanması AZS 1.2 dövlət standartına uyğun həyata keçirilir

### 7.6 Texniki şərtlər

**7.6.1** Texniki şərtlər müvafiq sahədə dövlət standartı və ya Azərbaycan Respublikasında birbaşa tətbiq olunan beynəlxalq, regional, dövlətlərarası və xarici dövlət standartları olmadığı təqdirdə və ya təsərrüfat subyekti tərəfindən müəyyən edilmiş yeni texniki həllərin istifadəsini təmin etmək məqsədilə təsərrüfat subyektləri

 ©AZSTAND –Bütün hüquqlar qorunur

tərəfindən işlənib hazırlanır. Texniki şərtlərdən üçüncü şəxslərin istifadəsi üçün texniki şərtlərin sahiblərinin razılığı olmalıdır. Texniki şərtlərin sahiblərinin razılığını bildirən müvafiq müqavilə texniki şərtlərin sahibləri tərəfindən milli standartlaşdırma qurumuna qeydiyyat üçün təqdim edilir.

**7.6.2** Təsərrüfat subyektləri texniki şərtləri hər hansı mala (işə, xidmətə), onunla əlaqəli prosesə (o cümlədən idarəetmə sisteminə), istehsal metoduna dair hazırlaya və qəbul edə bilərlər.

**7.6.3** Təsərrüfat subyekti hazırladığı texniki şərtlərin tələblərinə əməl etməli və istehsal etdiyi malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun texniki şərtlərin tələblərinə uyğunluğunu təmin etməlidir. Texniki şərtlərin müddəaları qanunvericiliyə və müvafiq sahədə mövcud olan texniki reqlamentlərin tələblərinə uyğun olmalıdır.

**7.6.4** Texniki şərtlərin işlənməsi, razılaşdırılması, təsdiqi və qeydiyyatı AZS 1.3 dövlət standartına uyğun həyata keçirilir.

**7.7** Standartlaşdırma obyektinin spesifik xüsusiyyətinə və ona verilən tələblərin məzmununa görə standartlaşdırma üzrə normativ sənədlər üçün aşağıdakı növ standartlar işlənib hazırlanır:

əsasverici standartlar;

məhsul, xidmət standartları;

proses standartları;

nəzarət üsulları (sınaq, ölçmə, analiz) standartları.

**7.8** Əsasverici standartlar müəyyən fəaliyyət sahəsi üçün ümumi təşkilati-metodiki qaydaları, eləcə də məhsulun yaradılma və istifadə proseslərində qarşılıqlı anlaşmanın müxtəlif elm, texnika və istehsalat sahələrinin texniki vəhdətini və qarşılıqlı əlaqəsini təmin edən ümumtexniki tələbləri, ətraf mühitin qorunması, məhsulun, proseslərin və xidmətin insanların həyatı və əmlakı üçün təhlükəsizliyi və başqa ümumtexniki tələbləri təyin edir.

**7.9** Məhsul (xidmət) standartları bircinsli məhsul (xidmət) qrupuna və ya konkret məhsula (xidmətə) verilən tələbləri təyin edir.

**7.10** Proses standartları müxtəlif fəaliyyət növlərində istifadə edilən proseslərdə müxtəlif işlərin (əməliyyatların) yerinə yetirilmə ardıcıllığı və metodlarına (üsullarına,

©AZSTAND –Bütün hüquqlar qorunur 

rejimlərə, normalara) verilən və proseslərin öz təyinatına uyğunluğunu təmin edən əsas tələbləri təyin edir.

**7.11** Nəzarət üsulları (sınaq, ölçmə, analiz) standartları məhsulun, prosesin, xidmətin müxtəlif nəzarət növləri və obyektləri üçün iş (əməliyyat) ardıcıllığını, fəndləri (qaydaları, rejimləri, normaları) və onların yerinə yetirilməsində lazım olan texniki vəsaiti təyin edir.

**7.12** Dövlət standartlarının tərtibi, şərhi və sənədləşdirilməsinə verilən ümumi tələblər AZS 1.5 üzrə, texniki şərtlərə verilən həmin tələblər isə AZS 1.3 üzrə təyin edilir.

**7.13** Azərbaycan Respublikasının qüvvədə olan dövlət standartlarının yeniləşdirilməsi və ləğvi AZS 1.2 üzrə aparılır.

**7.14** Beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartları milli standartlaşdırma qurumunun qərarı ilə dövlət standartı kimi qəbul edilərək Azərbaycan Respublikasının ərazisində birbaşa tətbiq edilə bilər [2].

**7.15** Müəlliflik hüquqları obyekti olan beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartlarının tətbiqi zamanı müəlliflik hüquqları qorunmalıdır.

## 8 STANDARTLAŞDIRMA SAHƏSİNDƏ BEYNƏLXALQ ELMİ-TEXNİKİ ƏMƏKDAŞLIQ

**8.1** Standartlaşdırma üzrə milli qurum Azərbaycan Respublikasının “Standartlaşdırma haqqında” qanununa uyğun olaraq standartlaşdırma sahəsində fəaliyyət göstərən beynəlxalq, regional təşkilatlarda Azərbaycan Respublikasını təmsil edir.

**8.2** Standartlaşdırma sahəsində beynəlxalq əməkdaşlığın əsas məqsədi aşağıdakılardan ibarətdir:

- Azərbaycan Respublikasının standartlaşdırma sisteminin beynəlxalq, regional və digər dövlətlərin mütərəqqi milli standartlaşdırma sistemləri ilə harmonizasiyası;
- Azərbaycan Respublikasında beynəlxalq, regional və digər ölkələrin milli standartlarından və elmi-texniki tərəqqinin nailiyyətlərindən maksimum istifadə etməklə, standartlaşdırma sahəsində sənədlər fondunun təkmilləşdirilməsi;

 ©AZSTAND –Bütün hüquqlar qorunur

- Azərbaycan Respublikasının milli standartlarının beynəlxalq, regional standartlar və digər dövlətlərin milli standartları ilə, xüsusilə sertifikatlaşdırma məqsədilə qəbul edilən standartlarla harmonizasiyası;
- ölkə məhsullarının və xidmətlərinin keyfiyyətinin, dünya bazarında rəqabət qabiliyyətinin artırılması;
- yeni rəqabət qabiliyyətli məhsul növləri və texnologiyaları üçün, Azərbaycan Respublikasının milli standartları əsasında, o cümlədən ikitərəfli və çoxtərəfli əməkdaşlıq nəticəsində yaradılan beynəlxalq və regional standartların işlənməsi;
- Azərbaycan Respublikasının digər ölkələrlə ticarət-iqtisadi və elmi-texniki əməkdaşlığının normativ təminatının yaxşılaşdırılması və beynəlxalq əmək bölgüsündə iştirak etməsi;
- beynəlxalq və regional standartlar hazırlandıqda, Azərbaycan Respublikasının milli maraqlarının qorunmasının təmin edilməsi;
- digər ölkələrlə qarşılıqlı əlaqədə, ölçmələrin vəhdətinin təmin edilməsi.

**8.3** Standartlaşdırma üzrə beynəlxalq əməkdaşlıq, standartlaşdırma üzrə beynəlxalq və regional təşkilatların xətti ilə, eləcə də digər dövlətlərin müvafiq təşkilatlarının ikitərəfli və çoxtərəfli əməkdaşlıq haqqında saziş, müqavilə və protokolları, standartlaşdırma üzrə beynəlxalq, regional təşkilatların fəaliyyətində Azərbaycan Respublikasının iştirakından irəli gələn öhdəliklər əsasında həyata keçirilir.

**8.4** Azərbaycan Respublikasının standartlaşdırma üzrə beynəlxalq təşkilatların xətti ilə beynəlxalq əməkdaşlığı bu təşkilatların işində bilavasitə iştirakından, ilk növbədə beynəlxalq və regional standartların işlənməsində iştirakından, eləcə də milli iqtisadiyyatda və tərəfdaş dövlətlərlə hüquqi-müqavilə münasibətlərində onların tətbiqinin təmin edilməsindən ibarətdir.

Standartlaşdırma üzrə ikitərəfli və çoxtərəfli əməkdaşlığa milli standartların harmonizasiyası, standartların birgə işlənməsi, elmi tədqiqatların birgə aparılması, təcrübə və informasiya mübadiləsi, qarşılıqlı məsləhətləşmə, kadrların hazırlanması və s. daxildir.

**8.5** Standartlaşdırma sahəsində beynəlxalq əməkdaşlıq üzrə işlərin təşkili və aparılması standartlaşdırma üzrə milli orqan tərəfindən müəyyən edilmiş və standartlaşdırma üzrə müvafiq qanunda qeyd olunmuş qaydada standartlaşdırma məsələləri ilə məşğul olan ISO, IEC və digər beynəlxalq və regional təşkilatların qəbul etdiyi metodiki sənədlər, eləcə də ölkədə qüvvədə olan və Azərbaycan Respublikasının

©AZSTAND –Bütün hüquqlar qorunur 

tərəfdaş dövlətlərlə ikitərəfli elmi-texniki əməkdaşlığı üzrə işlərin aparılması qaydalarını müəyyən edən sənədlər nəzərə alınmaqla həyata keçirilir.

**8.6** Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində olan qaydalar Azərbaycan Respublikasının standartlaşdırma üzrə qanunvericiliyində olan qaydalardan fərqli olduqda, Azərbaycan Respublikasının “Standartlaşdırma haqqında” Qanununa [1] uyğun olaraq beynəlxalq müqavilələrin qaydaları tətbiq olunur.

## 9 STANDARTLARIN TƏTBİQİ

**9.1** Standartlaşdırma üzrə normativ sənədlər malın (xidmətin, işin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodlarının standartlaşdırma üzrə normativ sənədlərin tələblərinə uyğunluğunun qiymətləndirilməsi, tədarük olunan (göndərilən) mallara (xidmətə, işə) və proseslərə texniki sənədlərin (konstruktor, texnoloji layihə) və kataloq vərəqələrinin işlənib hazırlanması zamanı könüllü şəkildə tətbiq olunur.

**9.2** Malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodlarının müvafiq standartlaşdırma üzrə normativ sənədlərin tələblərinə uyğunluğunun təsdiq edilməsi prosesindən əvvəl milli standartlaşdırma qurumundan standartlaşdırma üzrə normativ sənədlərin rəsmi nəşrlərinin əldə olunması və onların tələblərinə riayət olunması məcburi hesab olunur.

**9.3** Azərbaycan Respublikasının dövlət standartlarından Azərbaycan Respublikasının ərazisində, mülkiyyət forması və tabeçiliyindən asılı olmayaraq müəssisələr, fərdi əmək fəaliyyəti ilə məşğul olan vətəndaşlar, nazirlik (idarə) idarəetmə orqanları, eləcə də yerli idarəetmə orqanları istifadə edir.

Azərbaycan dövlət standartlarının insanların həyatı, sağlamlığı və əmlakının təhlükəsizliyini, ətraf mühitin qorunmasını, uyğunluq və qarşılıqlı əvəzolunmanı, eləcə də onlara nəzarəti və markalanma üsullarının vahidliyini təmin edən məhsulun, işin, xidmətin keyfiyyətinə yönəldilən məcburi tələbləri idarəetmə orqanları, müəssisələr, fərdi əmək fəaliyyəti ilə məşğul olan vətəndaşlar, eləcə də ictimai və başqa təşkilatlar tərəfindən yerinə yetirilməlidirlər.

Azərbaycan Respublikasının dövlət standartlarının başqa tələbləri aşağıdakı hallarda məcburi yerinə yetirilməlidir:

- Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərə alınmışsa;
- bu tələblər məhsulun layihələndirilməsi, istehsalı və göndərilməsi, işlərin

 ©AZSTAND –Bütün hüquqlar qorunur

görülməsi, xidmətlərin göstərilməsi üzrə müqaviləyə daxil edilmişsə;

**-** məhsulun, iş və xidmətin həmin tələblərə uyğunluğunu məhsul göndərən iş və xidmət icraçısı sənədlərdə göstərmişsə.

**9.4** Digər ölkələrin beynəlxalq (regional) və milli standartları, onların tələbləri xalq təsərrüfatının tələblərini ödəyirsə, əməkdaşlıq haqqında beynəlxalq razılaşmalar (müqavilələr) əsasında və ya uyğun regional təşkilatların və milli orqanların razılığı ilə istifadə edilə bilər.

**9.5** Digər ölkələrin beynəlxalq, əsaslandırılmış hallarda isə həm də regional və milli standartlarından istifadədə hazırlıq bir qayda olaraq, marağı olan müəssisə və təşkilatlar tərəfindən onların layihələri alındıqdan sonra başlanır.

Başqa ölkələrin beynəlxalq (regional) və milli standartlarının tələbləri istehlakçıları qane edirsə və Azərbaycan Respublikasının qüvvədə olan dövlət standartlarının məcburi tələblərindən aşağı səviyyədə deyilsə, onların dövlət standartları kimi qəbul edilənədək müəssisələr tərəfindən istifadəsinə yol verilir.

Məhsulların beynəlxalq (regional) və milli standartlara eyni zamanda xarici ölkələrin standartlarına uyğun olaraq hazırlanmasına və göndərilməsinə, həmin ölkələrin istehlakçısının (sifarişçisinin) təklifi ilə müqavilə (kontrakt) əsasında yol verilə bilər.

**9.6** Standartların tələblərinin pozulmasına yol verən şəxslər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**9.7** Azərbaycan Respublikasının standartlaşdırma üzrə normativ sənədlərindən başqa dövlətlər, onların hüquqi və fiziki şəxsləri əməkdaşlıq haqqında müqavilə və ya razılaşmalar və ya həmin sənədləri təsdiqləmiş Azərbaycan Respublikasının müvafiq qurumu, müəssisəsi və təşkilatlarının icazəsi əsasında istifadə edə bilərlər.

## 10 STANDARTLAŞDIRMA SAHƏSİNDƏ SƏNƏDLƏR HAQQINDA İNFORMASİYA, ONLARIN NƏŞRİ VƏ YAYIMI

**10.1** İstifadəçilərin, o cümlədən xarici istifadəçilərin, işlənib hazırlanan və təsdiq olunan standartlaşdırma üzrə normativ sənədlər haqqında, eləcə də bu sənədlərdən istifadə edə bilmə mümkünlüyü, həmçinin digər dövlətlərin dövlət standartları, beynəlxalq, regional standartlar, standartlaşdırma üzrə qaydalar, norma və tövsiyələr,

©AZSTAND –Bütün hüquqlar qorunur

standartlaşdırma sahəsində beynəlxalq sazişlər və onların tətbiqi qaydaları haqqında rəsmi informasiya milli standartlaşdırma qurumu tərəfindən təqdim edilir.

**10.2** Milli standartlaşdırma qurumu ilkin dövlət standartlarını, dövlət standartlarını, texniki şərtləri, standartlaşdırma üzrə beynəlxalq, regional, dövlətlərarası, xarici dövlətlərin standartlarını, dövlətlərarası müqavilələri, habelə onların tətbiqi qaydalarını mütəmadi olaraq standartlaşdırma üzrə dövlət fonduna daxil edir.

**Qeyd:** Standartlaşdırma üzrə dövlət fondunun təşkili, saxlanması, aktuallaşdırılması və mühafizəsi qaydası Nazirlər Kabinetinin 14 dekabr 2020-ci il tarixli 492 saylı Qərarı ilə müəyyən edilir [3].

Dövlət, xidmət və ya kommersiya sirrinin qorunması məqsədilə sərbəst girişə məhdudiyyət qoyulduğu hallar istisna olmaqla, maraqlı şəxslərə yaradılan informasiya ehtiyatlarına sərbəst giriş təmin edilir.

**10.3** Milli standartların və təsnifatların müəyyən edilmiş qaydada rəsmi nəşrinin və yayımının müstəsna hüququ standartlaşdırma üzrə milli orqana məxsusdur.

**10.4** Digər ölkələrin dövlət standartlarının nəşri, həmin ölkələrlə bağlanmış müqavilələrə və sazişlərə əsasən standartlaşdırma üzrə milli orqan tərəfindən təşkil edilir və yerinə yetirilir.

**10.5** Standartlaşdırma üzrə sənədlərin tətbiqi və yayımı müəlliflik hüquqlarına əməl edilməklə həyata keçirilir. Rəsmi nəşrlərin müəlliflik hüququ milli standartlaşdırma qurumuna məxsusdur.


©AZSTAND –Bütün hüquqlar qorunur

## BİBLİOGRAFİYA

[1] 1587-VQ saylı, 17 may 2019-cu il tarixli “Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının Qanunu.

[2] Azərbaycan Respublikası Prezidentinin 22 noyabr 1998-ci il tarixli 26 saylı “Beynəlxalq (regional) və dövlətlərarası standartların, normaların, qaydaların və tövsiyələrin Azərbaycan Respublikası ərazisində tanınması və tətbiq edilməsi Qaydalarının təsdiq edilməsi” barədə Qərarı.

[3] “Standartlaşdırma üzrə dövlət fondunun təşkili, saxlanması, aktuallaşdırılması və mühafizəsi Qaydası” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 14 dekabr tarixli, 492 nömrəli Qərarı.

©AZSTAND –Bütün hüquqlar qorunur

**ICS 01.120** **Qrup T 50**

**Əsas sözlər:** standartlaşdırma, məqsəd, vəzifələr, standartlaşdırma sistemi, prinsiplər, normativ sənədlər, beynəlxalq əməkdaşlıq, standartların tətbiqi.

 ©AZSTAND –Bütün hüquqlar qorunur

Rəsmi nəşr
“Azərbaycan Standartlaşdırma İnstitutu”
Publik hüquqi şəxs

**AZS 1.0:2022**

**Azərbaycan Respublikasının Dövlət Standartlaşdırma Sistemi.
Əsas müddəalar**

©AZSTAND –Bütün hüquqlar qorunur 